# Kompüter texnologiyaları

Təlimat

Qarşınızdaki imtahan testinin elektron bukletidir.

Test 31 tapşırıqdan ibarətdir.

Testin maksimal xalı – 35-dir.

Testdə verilmiş tapşırıqlar format baxımından müxtəlifdir. Hər bir tapşırığın təlimatını diqqətlə oxuyun, tapşırığı yerinə yetirmək üçün nə tələb olunduğunu yaxşı düşünün və sonra savabı seçin və yazın.

**Nəzərə alın:**

- Əgər düzgün cavabla bərabər səhv cavabı da qeyd etsəniz, xal ala bilməyəcəksiniz.

Testdə işləmək üçün sizə 1 saat 30 dəqiqə vaxt verilir.

Uğurlar arzulayırıq!

# Nəzəri Hissə

**Sual 1**

Aşağıdakı interfeyslərdən hansı yüksək keyfiyyətli video və audio siqnalların ötürülməsi üçün istifadə olunur:

ა) VGA interfeysi;

ბ) DVI-I interfeysi;

გ) DVI-D interfeysi;

დ) HDMI interfeysi.

**Sual 2**

Aşağıdakı qruplardan hansı yalnız audio fayl genişləndirmələrini ehtiva edir?

ა) MP3, WAV, MIDI, FLAC

ბ) AAC, OGG, JPG, MP3

გ) WAV, AIFF, DOC, AAC

დ) MP3, MP4, MOV, WAV

## Sual 3

Kompüterdə mövcud olan disklərdəki səhvləri yoxlamaq və düzəltmək üçün Windows əməliyyat sisteminin Command Prompt-da (cmd) hansı əmrdən istifadə olunur?

ა) defrag

ბ) chkdsk

გ) format

დ) diskpart

## Sual 4

Şəkildə aşağıda sadalanan cihazlardan hansı göstərilmişdir?




ა) Marşrutlaşdırıcı;

ბ) Xarici sərt disk;

გ) Fasiləsiz enerji təchizatı;

დ) Şəbəkə məlumatlarının saxlanması.

## Sual 5

İkilik ədədləri sağa və sola keçirmək (hərəkət etdirmək) mümkündür. Əgər 0010 0011 ikilik ədədini iki sıra sola keçirilsə, nə baş verəcək?

ა) Verilmiş ədədin qiyməti ikiyə bölünəcək;

ბ) Verilmiş ədədin qiyməti dördə bölünəcək;

გ) Verilmiş ədədin qiyməti ikiyə vurulacaq;

დ) Verilmiş ədədin qiyməti dördə vurulacaq;

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31

## Sual 6

Rəng dərinliyi hər bir pikselin neçə fərqli rəngi təmsil edə biləcəyini müəyyən edir. Şəklin rəng dərinliyi 5 bitdir. Aşağıdakılardan hansı bir pikselin ala biləcəyi rənglərin ümumi sayıdır?

ა) 8 rəng;

ბ) 6 rəng;

გ) 32 rəng;

დ) 24 rəng.

## Sual 7

Şəkildə komponentlərdən birinin ana plataya qoşulması prosesi göstərilmişdir. Aşağıdakı fəaliyyətlərdən hansı şəkildə göstərilən prosesi düzgün təsvir edir?




ა) Video adapterin PCI-e genişləndirmə yuvasına qoşulması;

ბ) Şəbəkə adapterinin ana platadakı müvafiq yuvaya qoşulması;

გ) SATA konnektorundan istifadə edərək sərt diskin ana plataya qoşulması;

დ) Operativ yaddaş modulunun ana platanın müvafiq yuvasına qoşulması.

## Sual 8

Aşağıda verilmiş şəkildə müxtəlif USB konnektorları göstərilmişdir. Müasir cihazlarda (məsələn, smartfonlar, noutbuklar, planşetlər) şarj etmək və məlumat ötürmək üçün hansı növ USB konnektoru istifadə olunur və eyni zamanda hansı audio/video siqnallarının keçirilməsini təmin edir?

ა) USB Type-C

ბ) USB Type-A

გ) USB Mini (Mini-B)

დ) USB Micro (Micro-B)




1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31

**Sual 9**

Aşağıda sadalanan xüsusiyyətlərdən hansı/hansılar operativ yaddaş (RAM) və daimi yaddaşın (SSD/HDD) xassələrini düzgün **təsvir etmir**?

I. Operativ yaddaş adətən daimi yaddaşdan daha böyük tutuma malikdir.

II. Operativ yaddaş enerjidən asılı, daimi yaddaş isə enerjidən asılı olmayan yaddaş növüdür.

III. Operativ yadsaş müvəqqəti məlumatları saxlamaq üçün istifadə olunur, daimi yaddaş isə məlumatları uzun müddət saxlayır.

ა) Yalnız I;

ბ) Yalnız II;

გ) Yalnız I və II;

დ) Yalnız II və III.

## Sual 10

Şəkildə sxem verilmişdir. Sxemin sol hissəsində 5 qurğu, sağ hissəsində isə bu qurğuların funksiyasını təsvir edən müddəalar verilmişdir. Verilmiş sxemdəqurğu və onun funksiyası arasındakı düzgün uyğunluğu seçin.

| | | | |
|---|---|---|---|
| I | Proyektor | A | Kağız sənədi elektron formaya çevirir və kompüterdə fayl kimi saxlayır |
| II | Şırnaqlı printer | B | İstifadəçiyə qələmdən istifadə edərək səthə yazmaq imkanı verir, sonra mətn/rəsm elektron şəkildə qeyd olunur və yaddaşda saxlanılır. |
| III | İnteraktiv lövhə | C | O, təsviri divara və ya ekrana ötürmək üçün parlaq ağ işıq mənbəyi və mikro güzgülərdən istifadə edir. |
| IV | Skaner | D | Çap nüsxəsini hazırlamaq üçün fırlanan baraban üzərində mənfi yüklü təsvirdən və müsbət yüklü tonerdən istifadə edir. |
| V | Lazerli printer | E | Çap nüsxəsini yaratmaq üçün termal qabarcıq və ya piezoelektrik texnologiyadan istifadə edir. |

| | | | | | |
|---|---|---|---|---|---|
| ა) | I – C | II – E | III –B | IV – A | V – D |
| ბ) | I – B | II – D | III – A | IV – B | V – E |
| გ) | I – C | II – E | III – D | IV – A | V – B |
| დ) | I – D | II – B | III – A | IV – E | V – C |

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31

## Sual 11

Şəkildə kompüterin qida bloku göstərilmişdir. Şəklin sol tərfində onun xassələri izah olunmuşdur, lakin bir neçəsi boş buraxılıb.

Brend : Zalman



– – – – – – – – – – – – – –: ATX
Model: ZM700-LX3
– – – – – – – – – – – – – –: 100,000 Hours
– – – – – – – – – – – – – – : 1 x Mainboard Cable, 1 x CPU Cable, 2 x PCI Express Cable, 4 x SATA, 3 x IDE
– – – – – – – – – – – – – – : 700 watt
Ölçülər (hündürlüyü x eni x dərinliyi): 140 x 150 x 86 mm
Çəkisi : 1.6 kq
Kommersiya zəmanəti: 24 ay

Aşağıda sadalananlardan hansı qida blokunun boş buraxılan xassələrinin ardıcıllığını düzgün əks etdirir?

ა) Form faktoru / manesəsiz iş vaxtı / konnektor / enerji təchizatı gücü;

ბ) Form faktoru / enerji təchizatı gücü / konnektor / maneəsiz iş vaxtı;

გ) Konnektor / maneəsiz iş vaxtı / form faktoru / enerji təchizatı gücü;

დ) Konnektor / enerji təchizatı gücü / maneəsiz iş vaxtı / form faktoru.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31

**Sual 12**

Sadalanan müddəalardan hansı/hansılar UTF-8 kodlaşdırmanın xassələrini düzgün təsvir edir?

I. UTF-8-in ilk 128 sivolu (0-dan 127-dək ) ASCII-nin 7 bitlik dəsti ilə eynidir.

II. UTF-8-də bütün simvolların təsvir olunması ASCII-də olduğu kimi 1 baytda (8 bitdə) mümkündür.

III. UTF-8 dəyişən uzunluqlu kodlardan (1-dən 4 baytadək), lakin ASCII-nin 128 simvolu üçün yalnız 1 baytdan istifadə edir.

ა) Yalnız I;

ბ) Yalnız III;

გ) Yalnız I və III;

დ) Yalnız II və III.

## Sual 13

Windows əməliyyat sisteminin idarə olunmasının aşağıda sadalanan aplikasiyalarından hansı gedən sistem proseslərinin monitorinqi üçün istifadə olunur?

ა) Task Manager

ბ) Control Panel

გ) Device Manager

დ) System Information

## Sual 14

Windows əməliyyat sisteminin idarə olunmasının aşağıda sadalanan aplikasiyalarından hansı yaddaş cihazlarına manipulyasiya etmək üçün, məsələn, disklərin məntiqi hissələrə bölünməsi zamanı (Partitioning) istifadə olunur?

ა) Disk Cleanup

ბ) Storage Spaces

გ) Disk Management

დ) BitLocker Drive Encryption

**Sual 15**

Paint proqramında şəkil verilmişdir.



Həyata keçirilən fəaliyyət/fəaliyyətlərdən sonra verilmiş şəklin iki fərqli variantını aldılar.




Paint proqramında rəsm instrumentlərindən istifadə edərək aşağıda sadalanan hansı fəaliyyət/fəaliyyətlərlər yerinə yetirilib?

ა) 1-ci variantda şəkili $180^0$ çeviriblər, 2-ci variantda isə şəkili şaquli istiqamətdə $30^0$ əyiblər (Skew) ;

ბ) 1-ci variantda şəkili $270^0$ çeviriblər, 2-ci variantda isə şəkili üfüqi istiqamətdə $30^0$ əyiblər (Skew) ;

გ) 1-ci variantda şəkili üfüqi olaraq çeviriblər (Flip horizontal) və kitabın rəngini dəyişiblər; 2-ci variantda isə şəkili şaquli istiqamətdə $30^0$ əyiblər (Skew) ;

დ) 1-ci variantda şəkili şaquli olaraq çeviriblər (Flip horizontal) və kitabın rəngini dəyişiblər; 2-ci variantda isə şəkili üfüqi istiqamətdə $30^0$ əyiblər (Skew);

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31

## Sual 16

Winlogon.exe prosesi Windows əməliyyat sistemində aşağıdakı funksiyalardan hansına malikdir?

ა) Sistemin yenilənmə prosesini idarə edir;

ბ) Sistemin fayllarının qorunmasına cavabdehdir;

გ) Başqa kompüterlərlə şəbəkə əlaqəsini təmin edir;

დ) İstifadəçinin avtorizasiya və sistemə daxil olmasına cavabdehdir.

## Sual 17

Aşağıda sadalanan müddəalardan hansı şəkildə verilmiş Creative Commons (CC) lisenziyasının növünü **düzgün** təsvir edir?




ა) Lisenziya əsərin hər hansı kommersiya və ya təhsil məqsədləri üçün istifadəsini qadağan edir;

ბ) Lisenziya əsərin azad şəkildə dəyişdirilməsinə və kommersiya məqsədli istifadəsinə icazə verir, lakin müəllifin qeyd olunmasını tələb edir;

გ) Bu lisenziyanın şərtlərinə əsasən, əsər istənilən formada, o cümlədən, dəyişdirilərək istifadə oluna bilər, lakin müəllifin qeyd olunması vacib deyil;

დ) Lisenziya ilə qorunan əsər kommersiya və qeyri-kommersiya məqsədləri üçün istifadə edilə bilər, lakin ona dəyişikliklər edilməsi qadağandır və müəllifin qeyd olunması tələb olunur.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31

**Sual 18**

IP ünvanı 172.16.10.5 və alt şəbəkə maskası 255.255.255.0- dan istifadə edərək şəbəkənin ikili formada ünvanını müəyyən edin''

ა) 10101100.00010000.00001010.00000000

ბ) 10101100.00010000.00001010.00000101

გ) 10101100.00010000.00000000.00000000

დ) 10101100.00010000.00001010.11111111

**Sual 19**

Şəbəkə texnologiyalarında şəbəkə cihazları üçün IP ünvanının avtomatik olaraq verilməsi üçün aşağıda sadalanan protokollardan hansı istifadə olunur?

ა) DNS (Domain Name System)

ბ) ARP (Address Resolution Protocol)

გ) APIPA (Automatic Private IP Addressing)

დ) DHCP (Dynamic Host Configuration Protocol)

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31

**Sual 20**

Siz YouTube-da keyfiyyəti saniyədə 25 meqabit (Mb/s) ötürmə qabiliyyəti tələb edən 4K videoya baxırsınız. Əgər İnternetinizin ötürmə qabiliyyəti saniyədə 100 meqabitdirsə (Mbps), digər aplikasiyalar (məsələn, fon yeniləmələri) üçün ötürmə qabiliyyətinin 20%-ni istifadə edərkən eyni vaxtda neçə oxşar 4K video yayımlaya bilərsiniz?

ა) 2 video;

ბ) 3 video;

გ) 4 video;

დ) 5 video.

## Sual 21

Aşağıda yaddaş cihazları haqqında altı müddəa verilmişdir. Cavablarda HDD və SSD sərt diskinin xassələri olan müddəalar verilmişdir (Bəzi müddəalar hər iki cihaz üçün ortaq ola bilər).
HDD və SSD disklərinin xüsusiyyətlərinin düzgün uyğunluğunu hansı cədvəlin doğru təsvir etdiyini seçin.

A –enerjidən asılı olmayan cihazdır;
B – fırlanan hissələri var;
C – məlumatları saxlamaq üçün fləş yaddaşdan istifadə edir;
D – məlumatları qeyd etmək üçün maqnit texnologiyasından istifadə edir;
E –cihazın məhdud sayda oxuma/yazma tsikli var;
F – məlumatların ehtiyat nüsxələrini saxlamaq üçün istifadə olunur;

ა)

| HDD diski | SSD diski |
|---|---|
| A | A |
| C | D |
| D | E |
| E | F |

ბ)

| HDD diski | SSD diski |
|---|---|
| A | A |
| B | C |
| D | E |
| F | F |

გ)

| HDD diski | SSD diski |
|---|---|
| B | A |
| C | B |
| E | D |
| F | E |

დ)

| HDD diski | SSD diski |
|---|---|
| A | B |
| B | C |
| C | D |
| F | E |

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31

**Sual 22**

Qida blokunun (PSU) 6+2-pinli (pin) PCIe konnektoru aşağıda sadalanan hansı funksiyaya malikdir

ა) Prosessora elektrik enerjisinin verilməsi;

ბ) Qrafik kartına (GPU) elektrik enerjisinin verilməsi;

გ) Kompüter ventilyatorlarına elektrik enerjisinin verilməsi;

დ) Operativ yaddaşa (RAM) elektrik enerjisinin verilməsi.

**Sual 23**

İtkisiz sıxılma metodundan (lossless compression) istifadə edən fayl növünün aşağıda sadalanan cütünü seçin.

ა) JPEG və MP3

ბ) PDF və PNG

გ) WAV və MP4

დ) JPEG və PNG

## Sual 24

Dato tərəfindən yaradılmış Scratch proqramı işə salındıqda "point" dəyişəninin qiyməti dəyişir. Aşağıda Scratch proqramının blokları verilmişdir. "Point" dəyişəninin yekun qiyməti nə olacaq?




ა) 4

ბ) 6

გ) 8

დ) 10

## Sual 25

Tamar tərəfindən yaradılmış Scratch proqramı proqram işə salındıqda "count" dəyişəninin qiymətini dəyişir. Aşağıda Scratch proqramının blokları verilmişdir. "Count" dəyişəninin yekun qiyməti nə olacaq?




ა) 4

ბ) 5

გ) 6

დ) 7

## Sual 26

Aşağıda sadalanan prosessor komponentlərindən hansı keş (Cache) yaddaşın idarə edilməsinə cavabdehdir?

ა) Control Unit (CU)

ბ) Bus Interface Unit (BIU)

გ) Arithmetic Logic Unit (ALU)

დ) Memory Management Unit (MMU)

**Sual 27**

Aşağıda sadalanan müddəalardan hansı/hansılar prosessorun çipsetinin (Chipset) funksiyasını düzgün təsvir edir?

I. Çipset prosessoru, operativ yaddaşı və periferik cihazları birləşdirən inteqrasiya edilmiş bir mikrosxemdir.

II. Çipset kompüterin müxtəlif komponentləri arasında məlumatların dəqiq və effektiv şəkildə ötürülməsinə cavabdehdir.

III. Çipset, prosessorla birlikdə hesablamaların və təlimatların yerinə yetirilməsinə cavabdeh olan inteqrasiya edilmiş bir mikrosxemdir.

ა) Yalnız I;

ბ) Yalnız III;

გ) Yalnız I və II ;

დ) Yalnız II və III.

## Sual 28

Aşağıda sadalanan müddəalardan hansı VRAM-ın xüsusiyyətlərini **düzgün təsvir etmir** ?

ა) VRAM qrafik məlumatların saxlanması üçün istifadə olunan xüsusi yaddaşdır;

ბ) VRAM, prosessora məlumatların emal etdilməsində kömək edən xüsusi yaddaşdır;

გ) VRAM adi RAM-dan daha çox sürətlidir və eyni vaxtda neçə qrafik  məlumatın işlənə biləcəyini müəyyən edir;

დ) VRAM qrafik adapter üçün vacibdir, çünki o, təsvirin sürətli işlənməsini, 3D animasiyaların və oyunların sürətli renderinqini (işlənməsini) təmin edir.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31

## Sual 29

*Maksimal xal - 2*

Siz USB portu vasitəsilə kompüterinizə xarici sərt disk (Xarici HDD) qoşmağa çalışırsınız, lakin əməliyyat sistemi onu tanıya bilmir.

- Bu problemə səbəb ola biləcək iki mümkün səbəb qeyd edin.
- Hər bir səbəb üçün həll yollarını təsvir edin.

**Sual 30**

*Maksimal xal - 2*

Siz məlumat emalı, vizual materialın yaradılması və komanda əməkdaşlığı tələb edən layihə üzərində işləyirsiniz. Layihənin uğurlu olması üçün müxtəlif məsələlərin həll edilməsində düzgün proqram təminatından istifadə etmək vacibdir.

Proqram təminatının iki müxtəlif kateqoriyasını qeyd edin (məsələn: mətn redaktorları, təqdimat proqramları, məlumatlar bazasının idarəetmə sistemləri, qrafik redaktorlar, proqramlaşdırma mühitləri və s.).
Buradan iki kateqoriya seçin və hər biri üçün:

- Layihənin həyata keçirilməsində sizə kömək edəcək iki mühüm funksiya göstərin.
- Bu funksiyaların konkret problemin həllinə necə kömək etdiyini təsvir edin (məsələn, vaxta qənaət, dəqiqliyi artırmaq, əməkdaşlığı təkmilləşdirmək).

**Sual 31**

*Maksimal xal - 3*

Bulud saxlama (Cloud Storage) və lokal saxlamanı (Local Storage) xarakterizə edin və onlar arasındakı fərqi təsvir edin.

- Sadalanan xüsusiyyətlərdən ikisini seçin və onları saxlama növünə əsasən bir-biri ilə müqayisə edin:

  – Məlumatların əlçatanlığı;
  – Təhlükəsizlik və konfidensiallıq;
  – Dəyər;
  – Miqyaslılıq.